# Azərbaycan ilə AYİB arasında əməkdaşlıq əlaqələri genişlənir

***Azərbaycanın sosial-iqtisadi sahələrdə əldə etdiyi uğurlar, eləcə də ölkədə həyata keçirilən iqtisadi islahatlar, rəqabətədavamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl addımlar dünyanın aparıcı iqtisadi-maliyyə institutlarının, iqtisadi azadlıq səviyyəsini tədqiq edən mərkəzlərin diqqətindən kənarda qalmır və yüksək qiymətləndirilir.***

Beynəlxalq reytinq agentliklərinin proqnozları da bir daha təsdiqləyir ki, Azərbaycan artıq iqtisadi cəhətdən azad ölkədir. Respublikada əlverişli biznes, investisiya mühiti mövcuddur. Eyni zamanda, hökumət vergi gəlirlərində və kapital xərclərində, habelə milli valyutanın məzənnəsi ilə bağlı təsirli nizamlayıcı addımlar atmaqla mövcud valyuta ehtiyatlarının azalmasının qarşısını alır. Bu, eyni zamanda, liberal iqtisadi islahatların, düşünülən, elmi əsaslara malik inkişaf konsepsiyasının həyata keçirilməsi, siyasi iradə nəticəsində gerçəkləşir və bütün bunlar dövlətimizin dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatmaq əzmindən, Azərbaycanın uğurlu gələcəyindən xəbər verir.

Ölkəmizdə iqtisadi islahatların həyata keçirilməsində Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) da fəal iştirak edir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bununla bağlı deyir: "Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycana göstərdiyi diqqətə görə, bu maliyyə qurumuna minnətdarlığımı ifadə etmək istərdim. Düşünürəm ki, demək olar son 30 ildə biz çox güclü tərəfdaşlıq əlaqələri qurmuşuq. Bank ölkənin transformasiyasında, iqtisadiyyatımızın şaxələndirilməsində bizi dəstəkləyib. Bizim 3 milyard avrodan çox məbləğdə layihələrimizin maliyyələşdirilməsi faktı bunu açıq-aşkar nümayiş etdirir. Hazırda bu portfelin yarısının özəl sektora yönəlmiş vəsait olması da mühüm əhəmiyyət kəsb edir. Bu da əməkdaşlığımızın yaxşı göstəricisidir".

AYİB tərəfindən son illərdə Azərbaycan rəhbərliyinin iradəsi ilə həyata keçirilən islahatların müsbət nəticələri ölkəmiz tərəfindən daim yüksək qiymətləndirilib, respublikamızda karbohidrogen hasilatından əldə edilən gəlirlərin iqtisadiyyatın digər sektorlarına yönəldilməsi nəticəsində iqtisadi şaxələnmənin gücləndiyi və özəl sektorun ümumi inkişafının əsas prioritetlərdən birinə çevrildiyi vurğulanıb. AYİB rəhbərliyinin, eyni zamanda, Azərbaycanın maliyyə sektorunda həyata keçirdiyi islahatlar sayəsində müşahidə olunan sabitlik də nəzərdən qaçmayıb, kreditləşmə və əmanətlərin həcmində dollarlaşmanın azalması müsbət tendensiya kimi vurğulanıb.

Qeyd edək ki, bu gün bank tərəfindən respublikamızda bərpaolunan enerji üzrə müvafiq layihələrin reallaşdırılması istiqamətində tədbirlər həyata keçirilir, torpaq sahələrinin ayrılması, elektrik enerjisinin satınalınması, elektrik stansiyalarının elektrik enerjisi şəbəkəsinə qoşulması və digər müqavilələrin hazırlanması işləri görülür.

AYİB-nin Azərbaycana xüsusi marağı, heç də təsadüfi deyil. Bu, bir tərəfdən, ölkəmizdə iqtisadi islahatların davamlı xarakter daşıması, əlverişli investisiya mühitinin yaradılması ilə bağlıdırsa, digər tərəfdən, maliyyə sektorunda yeniləşmənin müsbət nəticələri ilə əlaqədardır. Xatırladaq ki, AYİB açıqladığı son hesabatına əsasən, Azərbaycanda ölkə rəhbərliyinin iradəsi ilə həyata keçirilən islahatların müsbət nəticələri vurğulanıb, inkişafı şərtləndirən amillər qeyd edilib, gələcək dövr üçün proqnozlaşdırılan pozitiv perspektivlər əks olunub.

Hesabatda son illər ölkədə karbohidrogen hasilatından əldə edilən gəlirlərin iqtisadiyyatın digər sektorlarına yönəldilməsinin Azərbaycanda iqtisadi şaxələndirməni gücləndirdiyi və özəl sektorun ümumi inkişafın əsas prioritetlərdən birinə çevrildiyi vurğulanıb. Eyni zamanda, həmin sənəddə maliyyə sektorunda aparılan islahatlar nəticəsində vergi yükünün azaldılması, mikro, kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi xüsusi qeyd edilib.

Xatırladaq ki, AYİB tərəfindən indiyədək Azərbaycan iqtisadiyyatına 181 layihə üzrə 3,7 milyard avroya yaxın investisiya yatırılıb. AYİB-lə birgə layihələrin icrası ilə ölkəmizdə müxtəlif sahələrdə qabaqcıl təcrübənin, müasir texnologiyaların və innovasiyaların tətbiqi genişləndirilib.

AYİB-in "Strateji və Kapital Çərçivəsi 2021-2025" sənədində əks olunmuş məqsədlər Azərbaycan iqtisadiyyatı üçün müəyyənləşdirilmiş hədəflərlə uyğunluq təşkil edir. Bu, Azərbaycan və AYİB arasında yeni əməkdaşlıq istiqamətləri üçün möhkəm əsas yaradır.

Yeri gəlmişkən, Azərbaycanın dövlət şirkətlərinin AYİB tərəfindən maliyyələşdirilən infrastruktur layihələrinin demək olar ki, hamısı tamamlanıb. Bankın enerji layihələrinə, xüsusilə Cənub Qaz Dəhlizinə (CQD), onun 1 milyard avro məbləğində maliyyələşdirilmiş sonuncu hissəsi olan TAP-a verdiyi dəstək də mühüm önəm daşıyıb.

AYİB prezidenti Odil Reno-Bassonun sentyabrın 12-də Azərbaycana işgüzar səfəri çərçivəsində keçirilən görüşlərdə də bütün bunlar barədə ətraflı bəhs olunub. Energetika Nazirliyində AYİB prezidentinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə reallaşan tədbirdə bu maliyyə qurumu ilə uzunmüddətli və geniş əməkdaşlıqda mühüm rol oynayan enerji sektorunda gerçəkləşdirilən və planlaşdırılan layihələr, həmçinin yeni tərəfdaşlıq imkanları yüksək dəyərləndirilib.

Energetika naziri Pərviz Şahbazov AYİB ilə əməkdaşlığın inkişafını qlobal enerji gündəliyinin prioritetləri çərçivəsində nəzərdən keçirərək, bankın CQD-nin genişləndirilməsi prosesində iştirakının vacibliyini bildirib. Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanmasının layihənin genişləndirilməsi üçün əsas yaratdığını vurğulayan nazir 10-dan çox ölkənin respublikamızla təbii qaz tədarükündə tərəfdaşlıqda maraqlı olduğunu deyib. Pərviz Şahbazov, həmçinin zəngin təbii qaz resurslarının hasil edilərək, daha böyük həcmlərdə Avropa ölkələrinə nəqli üçün CQD-yə maliyyə dəstəyinin zəruriliyini söyləyib: "Cənub Qaz Dəhlizinin maliyyələşdirilməsi enerji keçidinə kömək edəcək. Bu, daha çox təbii qazın tədarükü ilə enerji böhranının nəticəsi olan kömürə qayıdışın qarşısını alacaq. Eyni zamanda, hidrogenin nəqli nümunəsində CQD-nin resurs mənbələri şaxələnəcək".

Hazırda Azərbaycan və AYİB arasında əlaqələr bir çox sahələrdə, o cümlədən enerji sektorunda uğurla inkişaf edir. Bank elektroenergetika, bərpaolunan enerji və enerji səmərəliliyi istiqamətində qarşıya qoyulmuş vəzifələrin reallaşdırılması üzrə gələcək əməkdaşlıq perspektivlərini, maliyyə dəstəyi ilə həyata keçirilən layihələrin icra vəziyyətini daim diqqətdə saxlayır.

Yuxarıda xatırlatdığımız görüşdə AYİB-nin Qaradağ Günəş Elektrik Stansiyası və Xızı-Abşeron Külək Elektrik Stansiyasının inkişafına dəstəyi də yüksək qiymətləndirilib.

Bərpa olunan enerji hərraclarının keçirilməsinə, kiçikmiqyaslı bərpa olunan enerji layihələri üçün lazımi normativ çərçivənin tətbiqinə və Enerji Məsələləri Tənzimləmə Agentliyinin fəaliyyətinə dəstəklə bağlı layihələrin gedişatı da görüşdə nəzərdən keçirilib. Həmçinin elektroenergetika sektorunda aşağı karbonlu həll yolları, Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit üzrə Tərəfdaşlıq (E5P) proqramı üzrə əməkdaşlıq çərçivəsində atılacaq addımlar müzakirə edilib.

Bildirilib ki, Azərbaycanda bərpa olunan enerji sahəsində daha iri istehsal güclərinin yaradılması və Xəzər dənizində ilkin mərhələdə 6 min meqavatlıq layihələrin reallaşdırılması ilə bağlı planlar şəbəkənin təkmilləşdirilməsini aktuallaşdırır və bu, bərpa olunan enerji sektorunun gələcək inkişafı üçün əsas şərtlərdəndir.

Qeyd edək ki, Energetika Nazirliyi ilə AYİB elektroenergetika sektorunun inkişafına texniki dəstəyə dair Anlaşma Memorandumu imzalamağı planlaşdırır. Sənəd bərpa olunan enerji, enerji səmərəliliyi, aşağı karbonlu elektroenergetika sektorunun inkişafı, metan emissiyalarının azaldılması və hidrogen texnologiyaları daxil olmaqla yeni əməkdaşlıq gündəliyini əhatə edir.

Yeri gəlmişkən, bu il mayın 12-də AYİB-nin "Yaşıl proqram"ı çərçivəsində Gəncə şəhərində "Bərk məişət tullantılarının idarə edilməsi" layihəsinin maliyyələşdirilməsi üzrə kredit ayrılmasına dair Azərbaycan Hökuməti ilə müqavilə imzalanıb.




Kredit sazişinin şərtlərinə əsasən, "Bərk məişət tullantılarının idarə edilməsi" layihəsi iki mərhələ üzrə həyata keçiriləcək. İlkin mərhələdə ayrılmış kredit tullantıların "ağıllı" toplanması və marşrutun optimallaşdırılması sistemlərinin tətbiqinə sərf olunacaq. Yeni konteyner növləri, mövcud tullantı parkının təkmilləşdirilməsi və daha "yaşıl" nəqliyyat vasitələrinin tətbiqi şəhərin kommunal xidmətlərində karbon izinin əhəmiyyətli dərəcədə azalmasına imkan verəcək.

Növbəti mərhələdə isə müasir regional sanitar poliqonun tikintisi ilə bərk məişət tullantılarının təkmilləşdirilməsinin başa çatdırılması nəzərdə tutulur. Tullantıların toplanması xidmətlərinin əhatə dairəsinin artırılması və genişləndirilməsi tullantıların nəzarətsiz yandırılmasını minimuma endirəcək, həmçinin kommunal xidmət sahəsi işçilərinin iş şəraitinin yaxşılaşdırılmasını təmin edəcək.

AYİB hazırda beynəlxalq ticarətə kömək edən yerli özəl bankları da maliyyələşdirir. Eyni zamanda, "yaşıl" və inklüziv maliyyələşmə vasitəsilə mikro, kiçik və orta müəssisələri dəstəkləyir. "Biz Azərbaycanda normativ-hüquqi bazanın təkmilləşdirilməsini fəal şəkildə dəstəkləyirik. Biz həm də məsləhət dəstəyi vasitəsilə tərəfdaşlarımızın daxili potensialının gücləndirilməsində iştirak edirik. Biz Azərbaycanın maliyyə infrastrukturunun ən mühüm elementlərini dəstəkləməyə, korporativ idarəetmənin təkmilləşdirilməsinə, eləcə də müvafiq maraqlı tərəflər tələb edərsə, özəlləşdirməyə kömək etməyə hazırıq", - deyə AYİB-in prezidenti bildirib.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***